


Qalib TOĞRUL,
27 fevral 2019

# KİV-də diqqət yetirilməli vergi məsələləri:

## *Vergi qanunvericiliyində nələr dəyişib?*

# I Bölmə




# Yeni anlayışlar

# Məcburi nişanlama

**Məcburi nişanlama malların uçotdan yayındırılmasının, saxta məhsulların bazara daxil olmasının qarşısının alınması məqsədilə onlara məcburi nişanlama kodunun və digər qoruyucu elementlərin vurulmasıdır.**

*- məcburi nişanlama markalarına görə dövlət rüsumu tutulacaq;*
*- kassa çeklərində malın sürətli məlumat kodunun (Quick Response Code) olması məcburi sayılacaq;*
*- Vegi Məcəlləsində məcburi nişanlama tələblərinin pozulması ilə bağlı böyük cərimələr nəzərdə tutulub.*

# İqtisadi Maraqlar Mərkəzi

*İqtisadi maraqlar mərkəzi – vergi odəyicisinin əsas nəzarət orqanlarının yerləşdiyi yerdən asılı olmayaraq, digər təsərrufat subyektləri (obyektləri), o cumlədən istehsal sahələri ilə muqayisədə vergi odəyicisinin fəaliyyəti uzrə gəlirlərinin formalaşmasında daha çox iştirak edən təsərrufat subyektinin (obyektinin), o cumlədən istehsal sahəsinin yerləşdiyi yer*



# Startap

**Startap** – *innovativ təşəbbüsə əsaslanaraq həyata keçirilən, Azərbaycan Respublikasının Prezidentinin müəyyən etdiyi orqan - Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş meyarlara cavab verən və mikro, kiçik və orta sahibkarlığın inkişafını dəstəkləyən Azərbaycan Respublikasının Prezidentinin müəyyən etdiyi orqan Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi tərəfindən "Startap" şəhadətnaməsi verilmiş şəxslərin həyata keçirdiyi sahibkarlıq fəaliyyəti*

1. *Bütün yeni proyektlər startap sayılırmı?*
2. *Startaplar hansı sahələrdə yaradılır?*
3. *Startapçılar kimlərdir (gənclər, tələbələr, tək, komanda halında), onlar investisiya üçün vəsaitləri hardan alırlar?*



# İnnovasiya fəaliyyəti

***İnnovasiya fəaliyyəti – iqtisadi və ya sosial səmərə əldə etmək məqsədi ilə elmi-tədqiqat və təcrübə-konstruktor işləri və onların nəticələrinin tətbiqi əsasında yeni və ya təkmilləşdirilmiş mal (iş, xidmət), texnoloji prosesyaradılmasına və yerinə yetirilməsinə istiqamətlənmiş fəaliyyət***



Vergi Məcəlləsində edilən dəyişikliyə əsasən, mikro və ya kiçik sahibkarlıq subyekti olan fərdi sahibkar və hüquq şəxs kimi fəaliyyət göstərən startapların "Startap" şəhadətnaməsi aldığı tarixdən innovasiya fəaliyyətindən əldə etdikləri gəlir 3 il müddətinə müvafiq olaraq gəlir və mənfəət vergisindən azaddır.

# MDSSH və işsizlikdən sığorta

Məcburi dövlət sosial sığorta və işsizlikdən sığorta haqlarının yığımı və hesabatlılıq məsələləri Vergilər Nazirliyinə həvalə edilib.
Hesabatlar vergi orqanların təqdim olunsa da, sosial ödənişlərlə bağlı məsələlər Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi vasitəsiylə tənzimlənəcək. Misal üçün, sosial məzuniyyət, əmək qabiliyyətinin müvəqqəti itirilməsi ilə bağlı müavinət, uşağın anadan olması ilə bağlı müavinət, qismən sosial məzuniyyət (3 yaşa qədər ödənilən) və s. Bu tipli ödəmələr Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən həyata keçiriləcək.



# Vergidən azad edilən gəlir və xərclərin uçotunun aparılması

**1.6.** 16-*cı maddə (Vergi odəyicisinin vəzifələri) uzrə:*
**1.6.1.** *16.1.3-cü maddəyə "(xərclərinin)" sozundən sonra ", o cumlədən vergidən azad edilən gəlirlərinin (xərclərinin)" sozləri əlavə edilsin;*
16.1.3. qanunvericiliklə nəzərdə tutulmuş qaydada gəlirlərinin (xərclərinin), ***o cumlədən vergidən azad edilən gəlirlərinin (xərclərinin)*** və vergitutma obyektlərinin uçotunu aparmaq.



# II Bölmə



# Əmək haqqıdan vergilər və sosial sığorta ödənişləri

# Fiziki şəxslərin muzdlu işdən aylıq gəlirlərindən tutulan vergi dərəcəsi

Birinci cədvəl

| Vergi tutulan aylıq gəlirin məbləği | Verginin məbləği |
|---|---|
| 2500 manatadək | 14 faiz |
| 2500 manatdan çox olduqda | 350 manat + 2500 manatdan çox olan məbləğin 25 faizi |

# Fiziki şəxslərin muzdlu işdən aylıq gəlirlərindən tutulan vergi dərəcəsi

İkinci cədvəl

| Vergiyə cəlb edilən aylıq gəlir | Verginin dərəcəsi |
|---|---|
| **8000 manatadək** | 0 faiz |
| **8000 manatdan çox olduqda** | 8000 manatdan çox olan məbləğin 14 faizi |

*Neft-qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət sektoruna aid edilən vergi ödəyicilərində işləyən fiziki şəxslərin muzdlu işdən aylıq gəlirlərindən vergi 2019-cu il yanvarın 1-dən 7 il müddətində yuxarıdakı cədvələ uyğun olaraq tutulur.*

# Fiziki şəxslərin muzdlu işdən aylıq gəlirlərindən tutulan vergi dərəcəsinin hesablanması. Misallar

**Misal 1.** Əhmədov Nazim dövlət orqanında çalışır və əmək muqaviləsinə uyğun olaraq əmək haqqı 500 manatdır.

**Misal 2.** Əliyev Samid neft-qaz sahəsində fəaliyyəti olmayan qeyri-dövlət MMC-də çalışır və ona 500 manat əmək haqqı hesablanır.

**Misal 3.** Musayev Nadir dövlət orqanında çalışır və ona 3000 manat əmək haqqı hesablanır.

**Misal 4**. Qarayev Cavid neft-qaz sahəsində fəaliyyəti olmayan, qeyri- dövlət MMC-də çalışır və ona 3000 manat əmək haqqı hesablanır.

**Misal 5.** Musayev Qasım dövlət orqanında çalışır və ona 8500 manat əmək haqqı hesablanır.

**Misal 6.** Quliyev Qara neft-qaz sahəsində fəaliyyəti olmayan MMC-də çalışır və ona 8500 manat əmək haqqı hesablanır.

# Fiziki şəxslərin muzdlu işdən aylıq gəlirlərindən tutulan vergi dərəcəsinin hesablanması. Misallar

*101.1-2. İki və ya daha зox yerdə muzdla işləyən fiziki şəxslərin gəlirlərindən gəlir vergisi hər bir iş yerində odənilən məbləğdən ayrıca hesablanır və dovlət budcəsinə odənilir.*

**Misal 1.** Əliyev Səməd əsas iş yeri olan dovlət təşkilatında 400 manat, əsas iş yeri olmayan qeyri-neft ozəl sektorunda isə 1000 manat əmək haqqı alır.




**Misal 2.** Miriyev Cavid neft sahəsində fəaliyyəti olmayan iki ozəl şirkətdə çalışır. Əsas iş yeri olan özəl şirkətdə 5000 manat, digər özəl şirkətdə isə 3500 manat əmək haqqıl alır.

# Neft-qaz sahəsində fəaliyyətə dair Meyarlar

1. Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti və onun strukturuna daxil olan müəssisələr, habelə hasilatın pay bölgüsü haqqında, əsas boru kəməri haqqında və digər bu qəbildən olan sazişlər üzrə podratçılar və əməliyyat şirkətləri fəaliyyət növündən asılı olmayaraq tam tərkibdə;
2. Birinci bənddə göstərilən şəxslərə xidmət göstərən xarici və yerli subpodratçılar:
*a) mövcud subpodratçılar üzrə göstərilən şəxslərə təqdim olunan mal, görülən iş və göstərilən xidmətlərə görə əvvəlki təqvim ili ərzində əldə olunan illik gəlirlərin (xərclər nəzərə alınmadan) həcmi məcmu illik gəlirlərin 50 faizindən çox olduğu təqdirdə*
b) il ərzində yeni yaradılacaq subpodratçılar üzrə – yeni yaradılan subpodratçı ilin əvvəlindən 1-ci bənddə göstərilən şəxslərə mal təqdim etməyə, iş görməyə  və xidmət göstərməyə başladığı ayadək əməkhaqqından gəlir vergisini güzəştli dərəcələrlə tətbiq edir.
*Təqvim ili ərzində göstərilən şəxslərlə müqavilə bağlayan subpodratçıların ilin əvvəlindən artan yekunla cəmi gəlirlərində (xərclər nəzərə alınmadan) həmin müqavilələr üzrə gəlirlərin (xərclər nəzərə alınmadan) xüsusi çəkisi 50 faizdən çox olduğu təqdirdə, növbəti ayın 1-dən etibarən təqvim ilinin sonunadək güzəşt hüququnu itirir (növbəti aylar üzrə artan yekunla gəlirlərin (xərclər nəzərə alınmadan) nisbətindən asılı olmayaraq).*

# Qeyri-dövlətə dair Meyarlar

## Qeyri-dövlət sektoruna daxildir:

- dövlət adından yaradılan publik hüquqi şəxslər;
- büdcə təşkilatları;
- dövlət büdcəsindən və dövlətə məxsus digər fondlardan maliyyələşən digər orqan və qurumlar;
- səhmlərinin və ya paylarının 51 və daha artıq faizi birbaşa və ya dolayısilə dövlətə məxsus olan hüquqi şəxslər istisna olmaqla,

**Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış hüquqi şəxslər və vergi ödəyicisi olan fiziki şəxslər.**



# Məcburi dövlət sosial sığorta haqqı

## Dövlət və neft-qaz sektoru üçün

- Sığortaedən tərəfindən ödənilən sığorta haqqı - hesablanmış əməyin ödənişi fondunun və məcburi dövlət sosial sığortasına cəlb olunan digər gəlirlərin 22 faizi;

- Sığortaolunan tərəfindən ödənilən sığorta haqqı - işçinin əməkhaqqının və məcburi dövlət sosial sığortasına cəlb olunan digər gəlirlərinin 3 faizi.



# Məcburi dövlət sosial sığorta haqqı (davamı)

*Neft-qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət sektoruna aid edilən sığortaedənlərdə işləyən sığortaolunanların muzdlu işdən aylıq gəlirlərindən məcburi dövlət sosial sığorta haqqı 2019-cu il yanvarın 1-dən 7 il müddətində aşağıdakı dərəcələrlə ödənilir:*

| Sığorta haqqına cəlb edilən aylıq gəlir | Sosial sığorta haqqı dərəcəsi | | |
|---|---|---|---|
| | cəmi | sığortaolunanın gəlirlərindən tutulan | sığortaedənin vəsaiti hesabına ödənilən |
| **200 manatadək** | 25 faiz | 3 faiz | 22 faiz |
| **200 manatdan çox olduqda** | 25 faiz | 6 manat + 200 manatdan çox olan hissənin 10 faizi | 44 manat + 200 manatdan çox olan hissənin 15 faizi |

# Məcburi dövlət sosial sığorta haqqı (davamı)

***Muzdlu işə aid olmayan fəaliyyətdən gəlir əldə edən sığortaolunanlar üzrə məcburi dövlət sosial sığorta haqqı aşağıdakı dərəcələrlə ödənilir:***

**- sahibkarlıq fəaliyyəti üzrə - minimum aylıq əməkhaqqının tikinti və ticarət sahələrində 50 faizi, digər sahələrdə 25 faizi miqdarında; (2020-ci il yanvarın 1-dən qüvvəyə minir)**

- mülki hüquqi xarakterli müqavilələrlə işləyənlər (fərdi sahibkarlar istisna olmaqla) üzrə ödəmə mənbəyindən tutulmaqla - gəlirlərinin 25 faizi miqdarında;

- xüsusi notariuslar üzrə - minimum aylıq əməkhaqqının on mislinin 25 faizi miqdarında;

- müəlliflik qonorarı ödəyən hüquqi və fiziki şəxslər üçün ödəmə mənbəyindən tutulmaqla - hesablanmış qonorar məbləğinin 15 faizi miqdarında;

- vəkillər kollegiyasının üzvləri, sərbəst auditorlar, sərbəst mühasiblər - gəlirlərinin 20 faizi miqdarında;

- mülkiyyətində olan kənd təsərrüfatına yararlı torpaqları istifadə edən fiziki şəxslərin (digər sahələrdə işləyib məcburi dövlət sosial sığorta haqqı ödəyənlər istisna olmaqla) və ailə kəndli təsərrüfatlarının əmək qabiliyyətli (I və II qrup əlillər, həmçinin sağlamlıq imkanları məhdud uşaqlar istisna olmaqla, 15 yaşından "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 7-ci maddəsi ilə müəyyən edilmiş yaş həddinədək olan şəxslər) ailə üzvlərinin hər biri üçün (alınan əmlak və torpaq payı hesabına şəxsi yardımçı və digər təsərrüfatlar daxil olmaqla) minimum aylıq əməkhaqqının 6 faizi miqdarında.

# Məcburi dövlət sosial sığorta haqqı (davamı)

***Muzdlu işə aid olmayan fəaliyyətdən gəlir əldə edən sığortaolunanlar üzrə məcburi dövlət sosial sığorta haqqı aşağıdakı dərəcələrlə ödənilir:***

- sahibkarlıq fəaliyyəti üzrə - minimum aylıq əməkhaqqının tikinti və ticarət sahələrində 50 faizi, digər sahələrdə 25 faizi miqdarında; (2020-ci il yanvarın 1-dən qüvvəyə minir)

- mülki hüquqi xarakterli müqavilələrlə işləyənlər (fərdi sahibkarlar istisna olmaqla) üzrə ödəmə mənbəyindən tutulmaqla - gəlirlərinin 25 faizi miqdarında;

- xüsusi notariuslar üzrə - minimum aylıq əməkhaqqının on mislinin 25 faizi miqdarında;

- müəlliflik qonorarı ödəyən hüquqi və fiziki şəxslər üçün ödəmə mənbəyindən tutulmaqla - hesablanmış qonorar məbləğinin 15 faizi miqdarında;

- vəkillər kollegiyasının üzvləri, sərbəst auditorlar, sərbəst mühasiblər - gəlirlərinin 20 faizi miqdarında;

- mülkiyyətində olan kənd təsərrüfatına yararlı torpaqları istifadə edən fiziki şəxslərin (digər sahələrdə işləyib məcburi dövlət sosial sığorta haqqı ödəyənlər istisna olmaqla) və ailə kəndli təsərrüfatlarının əmək qabiliyyətli (I və II qrup əlillər, həmçinin sağlamlıq imkanları məhdud uşaqlar istisna olmaqla, 15 yaşından "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 7-ci maddəsi ilə müəyyən edilmiş yaş həddinədək olan şəxslər) ailə üzvlərinin hər biri üçün (alınan əmlak və torpaq payı hesabına şəxsi yardımçı və digər təsərrüfatlar daxil olmaqla) minimum aylıq əməkhaqqının 6 faizi miqdarında.

# Məcburi dövlət sosial sığorta haqqı (davamı)

*Ticarət və tikinti sahələrində sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər ölkə üzrə müəyyən olunmuş minimum aylıq əmək haqqının 50 faizi məbləğinin, digər sahələrdə sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər isə 20 faizi məbləğinin:*

- Bakı şəhərində 100 faizi,
- Sumqayıt və Gəncə şəhərlərində 90 faizi,
- respublika tabeli digər şəhərlərdə 80 faizi,
- rayon mərkəzlərində, digər şəhərlərdə və qəsəbələrdə 60 faizi,
- kənd yerlərində 50 faizi miqdarında məcburi dövlət sosial sığorta haqqı ödəyirlər.

# III Bölmə

## İstehlakçılara ƏDV-nin qaytarılması



# ƏDV-nin qaytarılması ilə bağlı VM-də olunan dəyişikliklər

*165.5. Fiziki şəxs olan istehlakçılar tərəfindən Azərbaycan Respublikasının ərazisində pərakəndə ticarət və ya ictimai iaşə fəaliyyəti gostərən şəxslərdən alınmış mallara (neft və qaz məhsulları istisna olmaqla) gorə odənilmiş ƏDV-nin qaytarılması qaydasını Azərbaycan Respublikasının Prezidentinin muəyyən etdiyi orqan - Azərbaycan Respublikasının Nazirlər Kabineti muəyyən edir.*



***Bu maddəyə uyğun olaraq qaytarılan məbləğ nağdsız qaydada odənilmiş ƏDV-nin 15 faizini, nağd qaydada odənilmiş ƏDV-nin 10 faizini təşkil edir.*** *Odənilmiş ƏDV-nin bu maddə ilə muəyyən olunmuş hissəsinin qaytarılması zamanı təqdim edilən nəzarət-kassa aparatının çeki bu Məcəllənin 50.8-ci maddəsinin tələblərinə cavab verməlidir.*

# Nəzarət-kassa aparatının çeklərində aşağıdakı məlumatlar olmalıdır:

- vergi ödəyicisinin adı;
- VÖEN-i;
- çekin vurulmasının tarixi və saatı;
- təsərrüfat subyektinin (obyektinin) adı, vergi orqanındakı uçot kodu və yerləşdiyi ünvan;
- malın və ya xidmətin (işin) adı, ölçü vahidi, miqdarı, bir vahidinin qiyməti və yekun məbləğ (o cümlədən, ƏDV-nin və ya sadələşdirilmiş verginin məbləği);
- gün ərzində vurulmuş çeklərin sayı və nömrəsi;
- nəzarət-kassa aparatının markası və zavod nömrəsi;
- nəzarət-kassa aparatının fiskal rejiminin nişanı (əlaməti);
- malın sürətli məlumat kodu (Quick Response Code).



# Maddə 16. Vergi ödəyicisinin vəzifələri

16.7. Kart təşkilatları tərəfindən bu Məcəllənin 165.5-ci maddəsinə uyğun olaraq nağdsız qaydada aparılmış odənişlər barədə məlumat ay bitdikdən sonra novbəti ayın 20-dək Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən muəyyən edilmiş formada Azərbaycan Respublikasının Vergilər Nazirliyinə təqdim edilir.



# Maddə 16. Vergi ödəyicisinin vəzifələri

16.1.8. aşağıdakı fəaliyyət novləri istisna olmaqla, pərakəndə ticarət və (və ya) ictimai iaşə fəaliyyəti uzrə nağd pul hesablaşmalarını Nazirlər Kabineti tərəfindən muəyyən edilən meyarlara cavab verən və Vergilər Nazirliyinin elektron informasiya sisteminə real vaxt rejimində qoşulmuş nəzarət-kassa aparatı vasitəsi ilə həyata kecirmək.



- qəzet və jurnalların satışı (belə satış dövriyyəsinin ümumi dövriyyədəki payı 50 faizdən çox olduqda);
- kənd təsərrüfatı məhsullarının bazarlarda, yarmarkalarda və səyyar qaydada satışı;
- səyyar, bazarlarda və digər kütləvi ticarət yerlərində piştaxtadan, avtomobildən və qoşqu vasitələrindən pərakəndə satış fəaliyyəti;
- qiymətli kağızların və lotereya biletlərinin satışı;
- elektrik enerjisi, qaz, su, isti su təchizatı və mərkəzi qızdırma sistemi obyektlərinin fəaliyyəti;

# Nəzarət-kassa aparatlarının tətbiqi QRAFİKİ

| Mərhələlər | Təsərrüfat subyektlərinin (obyektlərinin) təsnifatı | Bakı şəhəri | Gəncə şəhəri | Sumqayıt şəhəri | Abşeron, Mingəçevir, Şirvan, Şəki, Lənkəran, Yevlax, Bərdə, Naxçıvan, Quba, Xaçmaz, Masallı, Göyçay, Şamaxı, Zaqatala, Şəmkir, Tovuz, Salyan, Sabirabad, Naftalan, şəhər və rayonları (kənd və qəsəbələr istisna olmaqla) | Digər rayon mərkəzləri (kənd və qəsəbələr istisna olmaqla) | Azərbaycan Respublikasının bütün kənd və qəsəbələri |
|---|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| I mərhələ 2019-cu il 1 iyul tarixədək | iri ticarət mərkəzləri ("Mall" tipli) | 2019-cu il 1 iyul tarixədək | 2019-cu il 1 oktyabr tarixədək | 2019-cu il 1 oktyabr tarixədək | 2019-cu il 1 oktyabr tarixədək | 2019-cu il 1 oktyabr tarixədək | 2019-cu il 1 oktyabr tarixədək |
| | şəbəkə sistemli marketlər | 2019-cu il 1 iyul tarixədək | 2019-cu il 1 iyul tarixədək | 2019-cu il 1 iyul tarixədək | 2019-cu il 1 oktyabr tarixədək | 2019-cu il 1 oktyabr tarixədək | 2019-cu il 1 oktyabr tarixədək |
| II mərhələ 2019-cu il 1 oktyabr tarixədək | yanacaqdoldurma məntəqələri | 2019-cu il 1 iyul tarixədək | 2019-cu il 1 iyul tarixədək | 2019-cu il 1 iyul tarixədək | 2019-cu il 1 oktyabr tarixədək | 2019-cu il 1 oktyabr tarixədək | 2019-cu il 1 oktyabr tarixədək |
| | İxtisaslaşmış qaydada avtomobil satışını həyata keçirən vergi ödəyiciləri | 2019-cu il 1 iyul tarixədək | 2019-cu il 1 oktyabr tarixədək | 2019-cu il 1 oktyabr tarixədək | 2019-cu il 1 oktyabr tarixədək | 2019-cu il 1 oktyabr tarixədək | 2019-cu il 1 oktyabr tarixədək |
| | şadlıq evləri | 2019-cu il 1 iyul tarixədək | 2019-cu il 1 oktyabr tarixədək | 2019-cu il 1 oktyabr tarixədək | 2019-cu il 1 oktyabr tarixədək | 2019-cu il 1 oktyabr tarixədək | 2019-cu il 1 oktyabr tarixədək |
| | mebel satışı üzrə ixtisaslaşmış müəssisələr | 2019-cu il 1 oktyabr tarixədək | 2019-cu il 1 oktyabr tarixədək | 2019-cu il 1 oktyabr tarixədək | 2019-cu il 1 oktyabr tarixədək | 2019-cu il 1 oktyabr tarixədək | 2019-cu il 1 oktyabr tarixədək |

# Nəzarət-kassa aparatlarının tətbiqi QRAFİKİ

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
|---|---|---|---|---|---|---|---|
| III mərhələ 2020-ci il 1 yanvar tarixədək | Əlavə Dəyər Vergisi ödəyicilərinin pərakəndə ticarət və (və ya) ictimai iaşə fəaliyyəti üzrə təsərrüfat subyektləri (obyektləri) | 2020-ci il 1 yanvar tarixədək | 2020-ci il 1 yanvar tarixədək | 2020-ci il 1 yanvar tarixədək | 2020-ci il 1 yanvar tarixədək | 2020-ci il 1 yanvar tarixədək | 2020-ci il 1 yanvar tarixədək |
| IV mərhələ 2022-ci il 31 dekabr tarixədək | digər pərakəndə ticarət və (və ya) ictimai iaşə fəaliyyəti üzrə təsərrüfat subyektləri (obyektləri) | 2021-ci il 1 aprel tarixədək | 2021-ci il 1 aprel tarixədək | 2021-ci il 1 aprel tarixədək | 2021-ci il 1 oktyabr tarixədək | 2021-ci il 31 dekabr tarixədək | 2022-ci il 31 dekabr tarixədək |

*1. Bu Qrafik təsdiq edilənədək vergi uçotuna alınmış vergi ödəyiciləri tərəfindən istismar edilən nəzarət-kassa aparatları Qrafikdə müəyyən edilmiş müddətədək istifadə edilməli və qeyd edilən müddətdən sonra həmin nəzarət-kassa aparatları Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi meyarlara cavab verən, Azərbaycan Respublikası Vergilər Nazirliyinin elektron informasiya sisteminə real vaxt rejimində qoşulması nəzərdə tutulan nəzarət-kassa aparatları ilə əvəz edilməlidir. 2. Bu Qrafik təsdiq edildikdən sonra yeni uçota alınan təsərrüfat subyektlərində (obyektlərində) Qrafikə uyğun olaraq, quraşdırılacaq nəzarət-kassa aparatları Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi meyarlara cavab verməli və Azərbaycan Respublikası Vergilər Nazirliyinin elektron informasiya sisteminə real vaxt rejimində qoşularaq istifadə edilməlidir.*

# ƏDV hansı şərtlərlə qaytarılacaq?

1. Yalnız ƏDV ödəyicisi olan pərakəndə ticarət və ictimai iaşə müəssisələrindən alınan mallar görə verilən çeklər etibarlıdır;
2. Yalnız yeni nəsil kassa aparatlarının quraşdırıldığı pərakəndə və ictimai iaşə müəssisələri tərəfindən verilən çeklər etibarlıdır.
3. Neft və qaz məhsulları istisnadır;
4. Nazirlər Kabineti kassa aparatları ilə bağlı yeni meyarlar hazırlamalıdır;
5. Kassa aparatlarının Vergilər Nazirliyinin elektron siteminə qoşulması təmin olunmalıdır;
6. ƏDV-nin qaytarılması ən tezi ödəniş edilən aydan sonrakı ayın 20-dən sonra mümkün olacaq.



# ƏDV-nin qaytarılması ilə bağlı misal

**MİSAL.**

Vətəndaş 118 (100 manat +18 manat (18% ƏDV)) manatlıq Pos terminal, 59 (50 manat + 9 manat (18% ƏDV)) manat isə nağd qaydada ödəniş edərək mallar alır. Qaytarılacaq ƏDV-ni hesablayaq.

*Vergi Məcəlləsinin tələblərinə əsasən, vətəndaşa qaytarılacaq ƏDV-nin məbləği POS-terminalla aldığı mala görə 2,70 manat (18 manat x 15 faiz)*

*Nağd qaydada aldığı mala görə isə 0,90 (9 manat x 10 faiz) manat təşkil edəcək.*

**Vətəndaşın müraciətinə əsasən, aldığı 177 (118+59) manatlıq mala görə 3.60 manat geri qaytarılacaq.**




# IV Bölmə

# MIKRO SAHIBKARLIQ subyektlərinin vergi öhdəlikləri

# Sahibkarlıq subyektlərinin yeni bölgüsü meyarları

| Sahibkarlıq subyektlərinin ölçüsünə görə kateqoriyaları | İşçilərinin orta siyahı sayı (nəfər) | İllik gəliri (ig) (min manat) |
|---|---|---|
| Mikro sahibkar | 1 – 10 | $ig \leq 200$ |
| Kiçik sahibkar | 11 – 50 | $200 < ig \leq 3\ 000$ |
| Orta sahibkar | 51 – 250 | $3\ 000 < ig \leq 30\ 000$ |
| İri sahibkar | 251 və ondan yuxarı | $30\ 000 < ig$ |

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 21 dekabr tarixli, 556 nömrəli qərarı ilə təsdiq edilən “Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları

# Mikro sahibkarlar: azadolmalar və güzəştlər

**Maddə 102. Gəlir vergisindən azadolmalar və güzəştlər**
102.1.30. mikro sahibkarlıq subyekti olan fərdi sahibkarların sahibkarlıq fəaliyyətindən gəlirinin 75 faizi;

**Maddə 106. Azadolmalar və güzəştlər**
106.1.20. mikro sahibkarlıq subyekti olan hüquqi şəxslərin sahibkarlıq fəaliyyətindən əldə etdikləri mənfəətin 75 faizi;
106.1.23. mikro və ya kiçik sahibkarlıq subyekti olan və hüquqi şəxs kimi fəaliyyət göstərən startapların "Startap" şəhadətnaməsi aldığı tarixdən innovasiya fəaliyyətindən əldə etdikləri mənfəəti - 3 il müddətinə;



**Maddə 114. Amortizasiya ayırmaları və gəlirdən amortizasiya olunan aktivlər üzrə çıxılan məbləğlər**
114.3-1. Mikro sahibkarlıq subyektləri sahibkarlıq fəaliyyətində istifadə etdikləri əsas vəsaitlərə münasibətdə amortizasiya ayırmalarını bu Məcəllənin 114.3-cü maddəsi ilə müəyyən edilən amortizasiya normalarına 2 əmsal tətbiq etməklə gəlirdən çıxmaq hüququna malikdirlər.

**Maddə 199. Vergi güzəştləri və azadolmalar**
199.14. Mikro sahibkarlıq subyekti olan şəxslər əmlak vergisini ödəməkdən azaddırlar.

# Mikro sahibkarın gəlir (mənfəət) vergisi



MİSAL

**Mikro** sahibkarın 2019-cu ilin 1-ci rübündə cəmi gəliri 5 000 manat olub. Fərz edək ki, həmin dövr üzrə xərci 1000 manat təşkil edib.

Bu zaman vergi ödəyicisi cari vergi məbləği haqqında arayışında 5000 manat gəlir və 1000 manat xərci qeyd etdikdən sonra yaranan 4000 (5000-1000) manatlıq gəlirin 20 faizi qədər vergi hesablanır:
4000 x 20 faiz= **800 manat.**

Bundan sonra cari vergi ödəməsinə 75 faiz güzəşt tətbiq edildiyindən 800 manatın 25 faizinə vergi hesablanır:

800 manat x 25 faiz=**200 manat**.

***Deməli, 4000 (5000-1000) manat gəlirə 200 (4000 manat x 20 faiz x 25 faiz) manat, yəni 5 faiz cari vergi ödəməsi həyata keçirilməlidir.***

# Mikro və kiçik sahibkarların amortizasiya ayırmaları: MİSAL

| Adı | İlin sonuna qalıq dəyəri | Amortizasiya normasının yuxarı həddi | Mikro sahibkarlıq subyekti olan müəssisə üzrə amortizasiya hesablanması | Kiçik sahibkarlıq subyekti olan müəssisə üzrə amortizasiya hesablanması |
|---|---|---|---|---|
| Tikili | 30 000 manat | 7 faiz | 30000 manat x 7 faiz x 2 əmsal= 4200 manat | 30000 manat x 7 faiz x 1,5 əmsal= 3150 manat |

***Cədvəldən göründüyü kimi, 01 yanvar 2019-cu il tarixinə kimi, ilin sonuna qalıq dəyəri 30 000 manat olan tikiliyə görə maksimum 2100 manat amortizasiya ayırması hesabladığı halda, dəyişiklik nəticəsində gəlirdən çıxılmasına icazə verilən xərcin məbləği mikro və kiçik sahibkarlıq subyekti olan müəssisələr üçün müvafiq olaraq 4200 və 3150 manat təşkil edəcək.***

# Muzdlu işə aid olmayan fəaliyyətdən gəlir əldə edən mikro sahibkarların sosial sığorta öhdəlikləri (1 mart 2019-cu ildən)

**Ticarət və tikinti** sahələrində sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər ölkə üzrə müəyyən olunmuş minimum aylıq əmək haqqının 50 faizi məbləğinin:

- Bakı şəhərində 100 faizi **(90 manat),**
- Sumqayıt və Gəncə şəhərlərində 90 faizi **(81 manat),**
- Respublika tabeli digər şəhərlərdə 80 faizi **(72 manat),**
- Rayon mərkəzlərində, digər şəhərlərdə və qəsəbələrdə 60 faizi **(54 manat)**,
- Kənd yerlərində 50 faizi **(45 manat)** miqdarında məcburi dövlət sosial sığorta haqqı ödəyirlər.

**Digər sahələrdə** sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər isə 20 faizi məbləğinin:

- Bakı şəhərində 100 faizi **(36 manat),**
- Sumqayıt və Gəncə şəhərlərində 90 faizi **(32.40 manat),**
- Respublika tabeli digər şəhərlərdə 80 faizi **(28.80 manat)**,
- Rayon mərkəzlərində, digər şəhərlərdə və qəsəbələrdə 60 faizi **(21.60 manat),**
- Kənd yerlərində 50 faizi **(18 manat)** miqdarında məcburi dövlət sosial sığorta haqqı ödəyirlər.

# V BÖLMƏ




# Sadələşdirilmiş vergi

# Kimlərin sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququ var

**Maddə 218. Sadələşdirilmiş verginin ödəyiciləri**

218.1. Aşağıda göstərilən şəxslər sadələşdirilmiş verginin ödəyicisi olmaq hüququna malikdir:

218.1.1. bu Məcəllənin XI fəslinin müddəaları nəzərə alınmaqla, ƏDV məqsədləri üçün qeydiyyata alınmamış və ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) vergi tutulan əməliyyatların həcmi 200.000 manat və ondan az olan şəxslər;

218.1.2. vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatdan artıq olan ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər;

218.1.3. bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər (özünə məxsus və ya cəlb edilən vəsait hesabına əhalinin fərdi (şəxsi) ehtiyaclarını ödəmək və ya kommersiya məqsədləri üçün öz gücü ilə və ya müvafiq ixtisaslı peşəkar sifarişçi və ya podratçı cəlb etməklə bina tikdirən, habelə bu tikintinin və ya başa çatmış obyektin mülkiyyətçisi olan hüquqi və ya fiziki şəxslər).

# Kimlərin sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququ yoxdur

- aksizli və məcburi nişanlama ilə nişanlanmalı olan mallar istehsal edən şəxslər;
- kredit təşkilatları, sığorta bazarının peşəkar iştirakçıları, investisiya fondları və bu fondların idarəçiləri, qiymətli kağızlar bazarında lisenziyalaşdırılan şəxslər, lombardlar;
- qeyri-dövlət pensiya fondları;
- əmlakın icarəyə verilməsindən və royaltidən gəlir əldə edən şəxslər;
- müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş təbii inhisar subyektləri;
- mülkiyyətində olan əsas vəsaitlərin ilin əvvəlinə (bu Məcəllənin 218.1.2-ci, 218.1.3-cü və 218.4-cü maddələrində göstərilən şəxslər istisna olmaqla) qalıq dəyəri 1.000.000 manatdan artıq olan şəxslər;
- publik hüquqi şəxslər;
- işçi sayı 10 nəfərdən çox olan istehsal fəaliyyətini həyata keçirən şəxslər;
- topdansatış ticarət fəaliyyəti qaydasında malların təqdim edilməsini həyata keçirən şəxslər;
- vergi ödəyicisi kimi vergi orqanında uçotda olmayan şəxslərə (əhaliyə) göstərilən xidmətlərdən başqa, xidmətlərin göstərilməsini həyata keçirən şəxslər (bu Məcəllənin 218.4.1-ci və 220.10-cu maddələrində nəzərdə tutulan şəxslər tərəfindən xidmətlərin göstərilməsi istisna olmaqla);
- qızıl, ondan hazırlanmış zərgərlik və digər məişət məmulatlarının, habelə almazın (emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş və emal olunmamış, çeşidlənməmiş, çərçivəyə salınmamış və bərkidilməmiş almaz) satışını həyata keçirən şəxslər;
- xəz-dəri məmulatlarının satışını həyata keçirən şəxslər;
- bina tikintisi fəaliyyəti ilə məşğul olan və icbari sığorta müqavilələri üzrə xidmət göstərən şəxslər istisna olmaqla, lisenziya tələb olunan fəaliyyət növü ilə məşğul olan şəxslər.

# Kimlərin sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququ yoxdur

- aksizli və məcburi nişanlama ilə nişanlanmalı olan mallar istehsal edən şəxslər;
- kredit təşkilatları, sığorta bazarının peşəkar iştirakçıları, investisiya fondları və bu fondların idarəçiləri, qiymətli kağızlar bazarında lisenziyalaşdırılan şəxslər, lombardlar;
- qeyri-dövlət pensiya fondları;
- əmlakın icarəyə verilməsindən və royaltidən gəlir əldə edən şəxslər;
- müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş təbii inhisar subyektləri;
- mülkiyyətində olan əsas vəsaitlərin ilin əvvəlinə (bu Məcəllənin 218.1.2-ci, 218.1.3-cü və 218.4-cü maddələrində göstərilən şəxslər istisna olmaqla) qalıq dəyəri 1.000.000 manatdan artıq olan şəxslər;
- publik hüquqi şəxslər;
- işçi sayı 10 nəfərdən çox olan istehsal fəaliyyətini həyata keçirən şəxslər;
- topdansatış ticarət fəaliyyəti qaydasında malların təqdim edilməsini həyata keçirən şəxslər;
- vergi ödəyicisi kimi vergi orqanında uçotda olmayan şəxslərə (əhaliyə) göstərilən xidmətlərdən başqa, xidmətlərin göstərilməsini həyata keçirən şəxslər (bu Məcəllənin 218.4.1-ci və 220.10-cu maddələrində nəzərdə tutulan şəxslər tərəfindən xidmətlərin göstərilməsi istisna olmaqla);
- qızıl, ondan hazırlanmış zərgərlik və digər məişət məmulatlarının, habelə almazın (emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş və emal olunmamış, çeşidlənməmiş, çərçivəyə salınmamış və bərkidilməmiş almaz) satışını həyata keçirən şəxslər;
- xəz-dəri məmulatlarının satışını həyata keçirən şəxslər;
- bina tikintisi fəaliyyəti ilə məşğul olan və icbari sığorta müqavilələri üzrə xidmət göstərən şəxslər istisna olmaqla, **lisenziya tələb olunan fəaliyyət növü ilə məşğul olan şəxslər.**

| Sıra nömrəsi | Fəaliyyət növünün adı |
|---|---|
| 1. | Toksiki istehsalat tullantılarının: |
| 1.1. | utilizasiyası |
| 1.2. | zərərsizləşdirilməsi |
| 2. | Özəl tibb fəaliyyəti |
| 3. | Əczaçılıq fəaliyyəti: |
| 3.1. | dərman vasitələrinin istehsalı |
| 3.2. | dərman vasitələrinin topdansatışı |
| 3.3. | dərman vasitələrinin pərakəndə satışı |
| 4. | Prekursorların: |
| 4.1. | istehsalı |
| 4.2. | idxalı |
| 4.3. | ixracı |
| 4.4. | tranzit nəql edilməsi |
| 5. | Təhsil fəaliyyəti: |
| 5.1. | məktəbəqədər təhsil müəssisələri |
| 5.2. | ümumi təhsil müəssisələri (liseylər və gimnaziyalar daxil olmaqla) |
| 5.3. | ilk peşə-ixtisas təhsili müəssisələri (peşə məktəbləri və peşə liseyləri) |
| 5.4. | orta ixtisas təhsili müəssisələri |
| 5.5. | ali təhsil müəssisələri |
| 5.6. | əlavə təhsil müəssisələri |
| 5.7. | dini orta ixtisas təhsili müəssisələri |
| 5.8. | ali dini təhsil müəssisələri |
| 6. | Rabitə xidmətləri: |
| 6.1. | telefon (məftilli) |
| 6.2. | radiotrank və simsiz telefon |
| 6.4. | İP-telefoniya (internet telefoniya) |
| 6.5. | ölkədaxili telekommunikasiya kanallarının təşkili |
| 6.6. | beynəlxalq telekommunikasiya kanallarının təşkili |
| 6.7. | məlumatların ötürülməsi (data) |
| 6.8. | sürətli poçt xidməti |
| 8. | Radioaktiv və ionlaşdırıcı şüalar verən maddələrin tullantılarının saxlanması |
| 9. | Təhlükəli yüklərin nəqliyyat vasitəsilə daşınması |
| 10. | Maye və təbii qaz təsərrüfatı obyektlərinin: |
| 10.1. | quraşdırılması |
| 10.2. | istismarı |
| 11. | Dağ-mədən işləri, dağ və buruq qazmalarının aparılması |
| 12. | Liftlərin quraşdırılması və təmiri fəaliyyəti |
| 13. | Attraksionların istismarı |
| 14. | **Qaldırıcı qurğuların, metallurgiya avadanlığının, təzyiq altında işləyən qazanların, tutumların quraşdırılması və təmiri** |
| 15. | Təhlükə potensiallı obyektlərdə istismar olunan avadanlığın və texniki qurğuların diaqnostikası və digər texniki yoxlamaların keçirilməsi |
| 16. | Yanğından mühafizə fəaliyyəti: |
| 16.1. | müəssisələrin və yaşayış məntəqələrinin müqavilə əsasında yanğınlardan qorunması |
| 16.2. | yanğınsöndürmə texnikası məhsulunun istehsalı və satışı, sınaqlarının keçirilməsi |
| 16.3. | yanğından mühafizə sistemlərinin və vasitələrinin quraşdırılması, texniki xidməti və təmiri |
| 16.4. | yanğınsöndürmə ləvazimatının, ilkin yanğınsöndürmə vasitələrinin təmiri və onlara xidmət, yanğınsöndürmə vasitələrinin keyfiyyətinin bərpası |
| 17. | Tikintisinə icazə tələb olunan bina və qurğuların mühəndis-axtarış işləri |
| 18. | Tikintisinə icazə tələb olunan bina və qurğuların tikinti-quraşdırma işləri |
| 19. | Tikintisinə icazə tələb olunan və barəsində məlumatlandırma icraatı tətbiq olunan bina və qurğuların layihələndirilməsi |
| 20. | Özəl baytarlıq təbabəti fəaliyyəti |
| 21. | Baytarlıq preparatlarının: |
| 21.1. | istehsalı |
| 21.2. | satışı |
| 22. | Bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin: |
| 22.1. | istehsalı |
| 22.2. | idxalı |
| 23. | Fərdi ovçuluq təsərrüfatlarının təşkili |
| 24. | İstehsal üçün yabanı dərman bitkiləri xammalının tədarükü |
| 25. | Müxtəlif növ möhürlərin və ştampların hazırlanması |

| Sıra nömrəsi | Fəaliyyət növünün adı |
|---|---|
| 1 | Özəl mühafizə fəaliyyəti |
| 2 | İnformasiya mühafizə vasitələrinin layihələndirilməsi və istehsalı sahəsində fəaliyyət |
| 3 | Biometrik texnologiyaların yaradılması və həmin texnologiyalara xidmət göstərilməsi |
| 4 | Fərdi məlumatların informasiya ehtiyatlarının formalaşdırılması və informasiya sistemlərinin yaradılması, onlara xidmət göstərilməsi |
| 4-1. | sellülar (mobil) rabitə xidmətləri (texnoloji standartın adı göstərilməklə) |
| 5. | Teleradio yayımı fəaliyyəti: |
| 5.1. | ümumrespublika televiziya yayımı |
| 5.2. | Bakı şəhəri üzrə televiziya yayımı |
| 5.3. | regional televiziya yayımı |
| 5.4. | ümumrespublika radio yayımı |
| 5.5. | Bakı şəhəri üzrə radio yayımı |
| 5.6. | regional radio yayımı |
| 5.7. | əlavə informasiya yayımı |
| 5.8. | abonentlərinin sayı 5000-dək olan kabel şəbəkəsi yayımı |
| 5.9. | abonentlərinin sayı 5000-dən yuxarı olan kabel şəbəkəsi yayımı |
| 5.10. | peyk yayımı |
| 5.11. | xarici teleradio kanallarının peyk vasitəsilə teleradio yayımının kodlaşdırılmış qurğularla həyata keçirilməsini təmin edən fəaliyyət |

# Sadələşdirilmiş vergi: azadolmalar

- Kənd təsərrüfatı məhsullarının istehsalçıları (o cümlədən sənaye üsulu ilə) tərəfindən özlərinin istehsal etdikləri kənd təsərrüfatı məhsullarının satışından əldə edilmiş hasilatın həcmi 2014-cü il yanvarın 1-dən 10 il müddətinə sadələşdirilmiş verginin vergitutma obyektinə daxil edilmir.
- Körpələr evləri, körpələr evi-uşaq bağçaları, uşaq bağçaları, xüsusi uşaq bağçaları və uşaq evləri 2014-cü il yanvarın 1-dən 10 il müddətinə sadələşdirilmiş vergini ödəməkdən azaddırlar.
- Bu Məcəllə ilə müəyyən olunmuş qaydada gəlirlərin və xərclərin uçotunu aparan, ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmayan və əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatadək olan rezident müəssisənin təsisçisi (payçısı) və yaxud səhmdarları olan şəxslərə ödənilən dividendlər sadələşdirilmiş vergidən azaddır.
- **Qanunla müəyyən edilmiş hallarda dövlət büdcəsinə olan vergi borclarının silinməsindən əldə olunan gəlir sadələşdirilmiş vergidən azaddır;**



# Sadələşdirilmiş vergi: əlavə müddəalar (davamı)

- Pərakəndə satış qaydasında malların satışının həyata keçirilməsi üzrə ticarət fəaliyyəti və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan sadələşdirilmiş vergi ödəyiciləri tərəfindən büdcəyə ödənilməli olan verginin məbləği 2019-cu il yanvarın 1-dən 3 il müddətinə "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş POSterminal vasitəsilə nağdsız qaydada aparılan ödənişlərin ümumi hasilatdakı xüsusi çəkisinə uyğun müəyyən edilən verginin 25 faizi həcmində azaldılır. **Bu güzəştin alınması hüququ müəyyən edilərkən vergi orqanında uçotda olan şəxslər tərəfindən POS-terminal vasitəsilə aparılan ödənişlərin məbləği nəzərə alınmır.**

**MİSAL**

**Ümumi gəlir** = 1.000 manat
o cümlədən, 200 manat nağd, 800 manat nağdsız

**Güzəşt tətbiq edilmədiyi halda, vergi ödəyicisinin ödəməli olduğu gəlir vergisinin məbləği**:
(1.000 x 2%) = 20 manat

**Xüsusi çəki** = (800 (nağdsız dövriyyə) / 1.000 (ümumi gəlir) = 0,8

**Güzəşt olunan məbləğ**
0.8 x 25% = 0.2 x 20 = 0.40 manat.

**Güzəştdən sonra ödənilməli vergi**
20 manat – 0.40 manat = 19.60 manat

# Gəlir vergisi ödəyiciləri olan ticarət fəaliyyəti və (və ya) ictimai iaşə fəaliyyətinə güzəştlər

**MİSAL**

**Ümumi gəlir** = 1.000 manat
o cümlədən, 200 manat nağd, 800 manat nağdsız

**Gəlirdən çıxılan ümumi xərc** = 700 manat;
Gəlir 1 000 manat – 700 manat = 300 manat

**Güzəşt tətbiq edilmədiyi halda, vergi ödəyicisinin ödəməli olduğu gəlir vergisinin məbləği**:
(1.000 – 700 = 300 x 20%) = 60 manat

**Xüsusi çəki** = (800 (nağdsız dövriyyə) / 1.000 (ümumi gəlir) = 0,8

**Güzəşt olunan məbləğ**
0.8 x 25% = 0.2 x 60 = 12 manat.

**Güzəştdən sonra ödəbnilməli vergi:** 48 manat

# Sadələşdirilmiş verginin dərəcəsi

- Sadələşdirilmiş vergi (bu Məcəllənin 218.4-cü maddəsində nəzərdə tutulmuş fəaliyyətlə məşğul olan və 218.1.2-ci maddəsində göstərilən vergi ödəyiciləri istisna olmaqla) bu verginin ödəyicilərinin malların təqdim edilməsindən, işlərin görülməsindən, xidmətlərin göstərilməsindən əldə etdiyi vəsaitin məbləğindən (ümumi hasilatının həcmindən) və satışdankənar gəlirlərdən 2 faiz dərəcə ilə;

- Vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatdan artıq olan ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər 8 faiz dərəcə ilə.



# Sabit (patent) vergi ödəyiciləri

| Fəaliyyət növünün adı | Sadələşdirilmiş vergi üzrə aylıq sabit məbləğ (manatla) |
|---|---|
| 1. Toylarda, şənliklərdə və digər tədbirlərdə aparıcılıq, çalğıçılıq, rəqqaslıq, aşıqlıq, məzhəkəçilik və digər oxşar fəaliyyət | 30 |
| 2. Fərdi foto, audio-video xidmətləri (foto studiyalar istisna olmaqla) sahəsində fəaliyyət | 30 |
| 3. Çəkməçi, pinəçi | 5 |
| 4. Saat, televizor, soyuducu və digər məişət cihazlarının təmiri | 10 |
| 5. Fərdi yaşayış evlərində və mənzillərdə ev qulluqçusu, xəstələrə, qocalara və uşaqlara qulluq xidməti, dayə, fərdi sürücülük, ev təsərrüfatında təmizlik, bağban, aşbaz, iaşə obyektlərində müştərilərə xidmət göstərən fiziki şəxslər (ofisiant), gözətçi və digər analoji işlər | 10 |
| 6. Nəqqaşlıq emalatxanalarının fəaliyyəti | 20 |
| 7. Fərdi qaydada bərbər fəaliyyəti ilə məşğul olan şəxslər | 15 |
| 8. Fərdi qaydada dərzi fəaliyyəti ilə məşğul olan şəxslər | 10 |

# Sabit (patent) vergi ödəyiciləri: əmsallar

Bakı şəhərində (kənd və qəsəbələr daxil olmaqla) - 2,0;
Gəncə, Sumqayıt və Xırdalan şəhərlərində - 1,5;
Abşeron rayonunun qəsəbə və kəndləri (Xırdalan şəhəri istisna olmaqla), Şirvan, Mingəçevir, Naxçıvan, Lənkəran, Yevlax, Şəki və Naftalan şəhərlərində - 1,0;
digər rayon (şəhər) və qəsəbələrdə (kəndlərdə) - 0,5.






# Nağdsız hesablaşmalar




## VI BÖLMƏ

# Hansı hesablaşmalar nağdsız hesab edilir



Nağdsız hesablaşma dedikdə, aşağıdakılar nəzərdə tutulur:

- bir şəxsin bank hesabından digər şəxsin bank hesabına köçürülməklə (o cümlədən ödəniş alətləri (ödəniş kartları, ödəniş tapşırığı və s.) və ödəniş vasitələri (mobil telefon aparatları, kompüter və digər avadanlıq) ilə həyata keçirilən hesablaşmalar;
- ödəniş terminalları ilə həyata keçirilən hesablaşmalar;
- birbaşa nağd qaydada satıcının bank hesabına köçürülməklə həyata keçirilən hesablaşmalar.
- Hər iki tərəf vergi ödəyicisi olan şəxs arasında hesablaşmalar üzrə nağdsız ödəniş yalnız bu Qanunun 3.1.1-ci maddəsində müəyyən olunmuş formada həyata keçirilə bilər.



# Hansı hesablaşmalar yalnız nağdsız aparılmalıdır

- vergilərin, gömrük rüsumları və yığımlarının, qanunla müəyyən edilmiş inzibati cərimələrin, maliyyə sanksiyalarının və faizlərin, lizinq əməliyyatları üzrə borcların ödənilməsi və kreditlərin verilməsi;
- “Sığorta fəaliyyəti haqqında” və “İcbari *sığortalar* haqqında” Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş ödənişlər;
- dövlət orqanlarına, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərə, büdcə təşkilatlarına və publik hüquqi şəxslərə ödənilən xidmət haqları və digər yığımlar;
- əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) iki yüz min manatadək olan pərakəndə ticarət, iaşə və xidmət sahəsində fəaliyyət göstərən şəxslər istisna olmaqla, digər şəxslər tərəfindən ödənilən əmək haqları (o cümlədən, işəgötürən tərəfindən ödənilən, qanunvericiliklə müəyyən edilmiş digər ödənişlər), pensiya, təqaüd, maddi yardım, müavinətlər (o cümlədən, birdəfəlik müavinətlər), kompensasiyalar və təzminatlar;
- stasionar telefon xidmətlərinin və kommunal xərclərin ödənilməsi;
- faizsiz pul vəsaitlərinin (vergi ödəyicisi olmayan şəxslər tərəfindən pul vəsaitlərinin verilməsi halları istisna olmaqla), digər ayırmaların ödənilməsi və qaytarılması;
- dövlət satınalma müqaviləsi üzrə əldə olunan vəsaitin istifadəsi (xərclənməsi);
- təhsil haqlarının ödənilməsi;
- turagentlərə ödəmələr.

# İstisna edilən nağd ödənişlər

**Vergi ödəyiciləri tərəfindən vergi ödəyicisi olmayan fiziki şəxslərdən aşağıdakı mallar nağd qaydada satın alına bilər:**

- kənd təsərrüfatı məhsullarının istehsalçılarından kənd təsərrüfatı məhsullarının qəbulu;
- əlvan və qara metal qırıntılarının qəbulu;
- utilizasiya və digər məqsədlər üçün kağız, şüşə və plastik məmulatların qəbulu;
- utilizasiya məqsədləri üçün işlənmiş şinlərin qəbulu.



# Nağdsız hesablaşmalarla bağlı aktual məsələlər

**Hər iki tərəf vergi ödəyicisi olan şəxs arasında hesablaşmalar üzrə nağdsız ödəniş** *yalnız bir şəxsin bank hesabından digər şəxsin bank hesabına köçürülməklə (o cümlədən ödəniş alətləri (ödəniş kartları, ödəniş tapşırığı və s.) və ödəniş vasitələri (mobil telefon aparatları, kompüter və digər avadanlıq) ilə aparıla bilər.*

*Hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən pul vəsaitlərinin nağd qaydada bank hesablarından çıxarılmasına görə* **1 faiz dərəcəsi ilə** *sadələşdirilmiş vergi hesablanır.*

*ƏDV məqsədləri üçün qeydiyyata alınmış vergi ödəyiciləri və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) iki yüz min manatdan artıq olan ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri tərəfindən* **təqvim ayı ərzində** *ümumi məbləği* **otuz min manatdan,** *digər vergi ödəyiciləri tərəfindən isə təqvim ayı ərzində ümumi məbləği* **on beş min manatdan** *artıq olan hesablaşmalar üzrə ödənişlər yalnız nağdsız qaydada həyata keçirilməlidir.*

# TƏŞƏKKÜR EDİRƏM!

